**Rəşid Vəkil CABBAROV**
Psixologiya elmləri doktoru, professor
E-mail: rashid.jabbar.v@gmail.com
Orcid: : https://orcid.org/0000-0002-0623-27721

**Nilufər Rauf MƏMMƏDOVA**
Qərbi Kaspi Universiteti
Psixologiya və Sosial iş kafedrasının magistrantı
E-mail: nilufarmammadova0703@mail.ru
nilufer.memmedova.2024@wcu.az

# YENİYETMƏNİN DEVİANT DAVRANIŞININ XÜSUSİYYƏTLƏRİ

**Xülasə**

Deviant davranış həm qeyri-rəsmi sosial qaydaları, həm də daha formal ictimai gözləntilər və qanunlar daxil olmaqla, sosial normaları pozan hərəkətlər kimi müəyyən edilir. Deviant davranışın psixoloji nəzəriyyələri, onu müxtəlif perspektivlərdən izah edir. Psixoanalitik yanaşma, məsələn, bütün insanların sosial sapmalara səbəb olan şüursuz çağırışlara məruz qaldığını göstərə bilər. Öyrənmə nəzəriyyələri əksinə, bu davranışların başqalarının deviant davranışlarla məşğul olmasını izləməklə öyrənildiyini təklif edir. Maddə istifadəsi kontekstində bu, insanların digər insanların maddələrdən istifadə etdiyinin şahidi olması nəticəsində narkotiklərdən istifadə etməyə və ya spirtdən sui-istifadə etməyə başlamalarını vurğulayır. Bu yazıda deviant davranışa səbəb olan psixoloji faktlar və onun sosial cəhətdən məqbul davranışdan nə ilə fərqləndiyi, eyni zamanda yeniyetmənin psixo-sosial inkişafında ailənin,cəmiyyətin,təhsil həyatının və onun şəxsiyyətlərarası münasibətlərinin rolu müzakirə edilir. Deviant davranışların böhranla əlaqəli olaraq, daha çox yeniyetmə yaş dövrlərində özünü biruzə verdiyi müşahidə edilmişdir. Müasir dövrdə artan natamam ailələr,sosial medianın düzgün istifadə edilməməsi və küçə qruplarının təsiri ilə yeniyetmələrdə müxtəlif növ deviant davranışların artımı nəzərə çarpır. Bu problemə sosial-psixoloji aspektdən yanaşmaq onun növlərini, yaranma səbəblərini,cəmiyyətdə necə təşəkkül tapmasını və ən əsası isə həll yollarını öyrənməyə imkan verir.

**Açar sözlər:** yeniyetmə, asosial davranış, şəxsiyyət, münasibət, deviant davranış, sosial norma, anomiya.

**UOT:** 159.922.762
**DOİ:** https://doi.org/10.54414/LGUY8243

## Giriş

Yeniyetməlik dövrü insanın psixososial inkişaf mərhələlərinin ən həssas və dinamik mərhələlərindən biridir. Bu dövr fiziki, emosional, sosial və idrak proseslərində mühüm dəyişikliklərlə müşayiət olunur və fərdin şəxsiyyətinin formalaşmasında böyük rol oynayır. Psixoloq Erik Eriksonun nəzəriyyəsinə əsasən, yeniyetmələr bu mərhələdə psixososial böhranla qarşı-qarşıya qalırlar. Bu dəyişikliklərin və daxili qarşıdurmaların təsiri altında yeniyetmələr bəzən cəmiyyətin qəbul etdiyi norma və dəyərlərə zidd davranış formalarına-deviant davranışlara meyil göstərə bilərlər. Deviant davranışlar sosiumun yazılı və ya yazılmamış qaydalarına uyğun gəlməyən, əksər hallarda neqativ dəyərləndirilən hərəkətlər toplusudur. Yeniyetmələr arasında deviant davranışların yayılmasının səbəbləri çoxşaxəlidir və fərdi, ailəvi, məktəb mühiti və daha geniş sosial kontekstdə analiz edilməlidir. Bu davranış formalarına aqressiya, alkoqol və narkotik maddələrin istifadəsi, məktəbdən yayınma, cinayət meyilli fəaliyyətlər və sosial izolyasiya kimi hallar daxildir. Sosial psixologiya və

sosiologiyanın kəsişdiyi bu sahə, həm fərdi inkişafı, həm də ictimai sabitliyi təhdid edən faktorları dəyərləndirmək baxımından əhəmiyyətlidir. Bu məqalədə yeniyetməlik dövrünün inkişaf xüsusiyyətləri kontekstində deviant davranışların yaranma səbəbləri, növləri və qarşısının alınması yolları elmi ədəbiyyatlardakı izahı əks olunmuşdur.

**Əsas hissə**

Müəllifi M.İ.Enikievin olduğu psixoloji ensiklopedik lüğətdə deviant davranış belə izah edilmişdir: müəyyən bir sosial cəmiyyətdə rəsmi olaraq müəyyən edilmiş və ya faktiki işlənmiş normalardan və sosial gözləntilərdən kənara çıxan davranış. Deviant davranış subyekti rəftar, islah və cəza şəklində sosial sanksiyalara məruz qalır. Deviant davranışın əsas növləri bunlardır: cinayətkarlıq, hüquq pozuntusu, cinayət və marginallıq - davranışın ekstremal formaları (alkoqolizm, narkomaniya, fahişəlik, avaralıq və dilənçilik). Deviant davranış cəmiyyətin sosial qeyri-sabitliyi, sosial normaların dəyərsizləşməsi, əsas ehtiyacların sosial uyğunlaşdırılmış üsullarla ödənilməsinin qeyri-mümkün olması, cəmiyyətin sosiallaşma qüsurlarına qarşı tolerantlığı (tolerantlığı) zamanı baş verir [5, s. 80].

Yeniyetmələrdə deviant davranışın mahiyyətini daha yaxşı anlamaq üçün, biz yeniyetməlik dövrünün psixoloji xüsusiyyətləri ilə yaxından tanış olmalıyıq.

Yeniyetməlik dövrünə keçid keyfiyyətcə yeni formasiyaların yaranması ilə xarakterizə olunur və bu formasiyalar özünüdərk səviyyəsinin, yəni yetkinlik hissi olan "Mən-konsepsiyasının" inkişafı kimi başa düşülür [6].

L.S.Vıqotski yeni formasiyanın ən aydın tərifini verə bilmişdir - bu, bu dəyişikliklərin ümumiləşdirilmiş nəticəsidir, müvafiq dövrdə uşağın bütün zehni inkişafının nəticəsidir və bu, zehni proseslərin və növbəti yaş uşağının şəxsiyyətinin formalaşması üçün başlanğıc nöqtəsinə çevrilir. [4] Yeni formasiyalar uşağın şəxsi inkişafına təsir edən şəraitdə dərin dəyişikliklərlə xarakterizə olunur və bu dəyişikliklər psixoloji xüsusiyyətlər şəklində sabitlənir. Çox vaxt onlar bədənin fiziologiyasına, yeniyetmələrin böyüklər və həmyaşıdları ilə inkişaf etdirdiyi münasibətlərə, idrak proseslərinin, zəkanın və qabiliyyətlərin inkişaf səviyyəsinə aiddir. Yeniyetməlik dövrünün psixoloji xüsusiyyətləri ilk dəfə S.Holl tərəfindən təsvir edilmiş və o, yeniyetmənin davranışının uyğunsuzluğunu qeyd etmişdir (məsələn, intensiv ünsiyyət təcridlə əvəz olunur, özünəinam qeyri-müəyyənliyə və özünə şübhəyə çevrilir və s.). O, psixologiyaya yeniyetməlik anlayışını inkişafın böhran dövrü kimi təqdim etmişdir. [13] Yetkinlik hissi yeniyetməliyin başlanğıcının psixoloji simptomudur.

D.B. Elkoninə görə, yetkinlik hissi, yeniyetmənin özünü başqaları (böyüklər və ya yaşıdları) ilə müqayisə etdiyi, rol modelləri tapdığı, münasibətlər qurduğu və fəaliyyətlərini yenidən qurduğu şüurda yeni bir inkişafdır. Yeniyetməliyin keçid mərhələsi, əlbəttə ki, bioloji aspekti əhatə edir. Bu, intensivliyi "hormonal fırtına" termini ilə vurğulanan yetkinlik dövrüdür. Fiziki, fizioloji və psixoloji dəyişikliklər, eləcə də cinsi istəyin ortaya çıxması bu dövrü, xüsusən də hər mənada sürətlə böyüyən yeniyetmənin özü üçün olduqca çətin edir [6].

Yeniyetmənin şəxsiyyətinin təşəkkülü və formalaşması mürəkkəb prosesdir. Burada müxtəlif amillər, təsirlər sistemi mühüm rol oynayır. Lakin nəzərdən qaçırmaq olmaz ki, yeniyetmələrin şəxsiyyətinin formalaşmasında özünüdərk və özünüqiymətləndirmənin inkişafı mühüm rol oynayır. Bu, demək olar ki, onlarda şəxsiyyətin inkişafının və formalaşmasının yeni mərhələsidir. Yəni bu mərhələdə yeniyetmələrdə özünəmaraq güclənir, öz şəxsi keyfiyyətlərini dərk etmək, onları bu və ya digər cəhətdən qiymətləndirmək meyli özünü daha aydın surətdə biruzə verməyə başlayır. Belə bir meylin yaranması ilə onlarda özlərini başqaları ilə müqayisə etməyə, oxşar və fərqli cəhətləri müəyyən etməyə, fərqli cəhətlərin səbəblərini araşdırmağa tələbat yaranır. Bu zəmində onlarda öz hiss və düşüncələrinin, rəftar və davranışlarının mahiyyətinə varmağa, onların yaxşı və pis cəhətlərini aşkar etməyə, səbəblərini özləri üçün ayırd etməyə daxili meyl güclənir.Həmin bu zəmində bir sıra

hallarda ayrı-ayrı yeniyetmələrdə onun İddia səviyyəsi ilə real mövqei, yəni yoldaşları, ətraf adamlar arasındakı mövqei arasında ziddiyyət yaranır. Belə bir ziddiyyət müxtəlif təzahürlərə malik ola bilir. Yəni yeniyetmə özünü və öz şəxsi keyfiyyətlərini adekvat qiymətləndirdikdə, öz nöqsan və çatışmazlıqlarını aydın dərk etdikdə onda özünütəkmilləşdirmə, özünüislah və özünütərbiyə cəhdi artır, yəni belə bir adekvat qiymətləndirmə yeniyetmənin özünütəkmilləşdirməsi üçün təkan rolunu oynayır. Bu, məsələnin bir tərəfidir, həm də müsbət tərəfidir. İkinci və əsasən də mənfi tərəfi ondadır ki, yeniyetmə bəzən özünü, öz bacarıq və qabiliyyətlərini, öz imkanlarını, ən başlıcası ictimai mövqeini düzgün qiymətləndirmir və onun şəxsiyyətinin təşəkkülündə dərin ziddiyyət əmələ gəlir, onun nöqsan və çatışmamazlıqlarını deyən insanlara qarşı mənfi münasibət, bir sıra hallarda isə tam neqativ və hətta düşmənçilik münasibəti formalaşır və bu da ətraf adamlarla münasibətlər sistemində aydın surətdə özünü biruzə verir. Bu amil onlarda asosial, neqativ davranışların da mənbəyinə çevrilə bilir. Lakin belə bir xoşagəlməz təzahürlərin qarşısını almaq üçün yeniyetmələrə istər ailədə, istərsə də məktəbdə, yəni təlim-tərbiyə prosesində həssas və qayğıkeş münasibət bəsləmək zəruridir. Belə bir münasibət həm də ona görə zəruri olur ki, yeniyetmələrdə şəxsiyyətin ziddiyyətlərlə müşayiət olunur [1, s. 21].

Yeniyetmə yaşı üçün səciyyəvi cəhətlərdən biri də onlarda xarakterin təşəkkülü və formalaşmasıdır. Deməli, yeniyetmə yaşında xarakterin formalaşması onların ümumi inkişafında mühüm yer tutur. Onlarda coşqun fəallıq, qaynar enerji, hər şeylə maraqlanma, təşəbbüskarlıq, optimizm, iradi keyfiyyətlərin formalaşması üçün əsaslı psixoloji zəmin yaradır. Yeniyetmə yaşı üçün yoldaşlıq hissinin inkişafı, mehriban ünsiyyətə ehtiyacın artması, dostluğa, mehriban münasibətlərə şüurlu münasibətin yaranması daha xarakterikdir. Belə münasibətlərin daxili motivləri də güclü olur, ona görə də dostluq münasibətləri yeniyetmələrdə daha məzmunlu və davamlı olur. Onlarda qürur hissi, kollektivçilik hissi nisbətən güclü olur, odur ki, müxtəlif quruplara meyl və onlara qoşulma cəhdi yeniyetmələrdə daha qabarıq surətdə özünü biruzə verir. Nəzərə almaq lazımdır ki, prof. Ə.S.Bayramovun haqlı olaraq qeyd etdiyi kimi, "şəxsiyyətin təşəkkülü hər yerdə və hər zaman yüksələn xətt üzrə getmir. Müxtəlif həyat şəraiti və yaş dövrlərində şəxsiyyətin təşəkkülü eyni nəticəni vermir". Elə buna görə də eyni sosial mühitdə, eyni xarici təsir şəraitində ayrı-ayrı yeniyetmələrdə başqa-başqa mənəvi keyfiyyətlər təşəkkül tapır, müxtəlif çalarlı asosial davranış xüsusiyyətləri özünü göstərir. Heç şübhəsiz, bu cəhət həm də yeniyetmənin daxili mənəvi dünyası ilə əlaqədardır. Yəni eyni xarici təsir ayrı-ayrı yeniyetmələrin şəxsi təfəkkür süzgəcindən özünəməxsus şəkildə süzülüb keçir. Odur ki, eyni xarici təsir hər bir yeniyetmənin həyat istiqamətinin, sərvət meylinin məzmunundan, ümumən mənəvi keyfiyyətlərindən asılı olaraq müxtəlif təsirlər yarada bilər və müxtəlif asosial davranışlarda özünü biruzə verə bilər. Asosial davranışın təzahürləri yeniyetmələrdə müxtəlif əməl və hərəkətlərdə özünü göstərir [1, s. 24].

Deviant davranışlar, digərlərinin haqlarının və sosial qaydaların pozulmasını əhatə edən, ailə, dost, məktəb və sosial çevrə kimi sosial mövhumlara mənfi yöndə təsir etmə potensialına sahib olan hər cür davranış olaraq da izah edilmədədir. Bu hərəkətlər insanları yaralama ya da mala zərər vermə niyyətilə törədilən qanundan kənar davranışları və məktəbdən qaçmaq kimi ümumi olaraq qəbul edilmiş qaydalara və idarəçiliyə meydan oxumağı əhatə edir. Deviant davranışlar olaraq məsələn, şəxsi əşyaya zərər vermək, qəsdən yanğın törətmək, oğurluq, narkotik istifadəsi, maşın qaçırma, içkili avtomobil idarə etmə, insanı yaralama, birini döymə, təhdit edərək zorla birindən nəyisə alma, silah gəzdirmə, dalaşma, dövlət əmlakına zərər vurma, məktəbdən qaçma kimi ümumi olaraq qəbul edilmiş qaydalara və hakimiyyətə tabe olmamağı əhatə edən və təməlində aqressiyanın da olduğu davranışlar diqqətimizi cəlb edir [13, s. 1520-1530].

Sosial psixologiyada ziddiyyətli davranış həm də şəxsiyyətlərarası münasibətləri

xarakterizə edərkən istifadə olunur. Yəni bu halda bir fərd başqa fərdlərə qarşı və ya müəyyən qrupa qarşı qoyulur və həmin fərdin bu və ya digər dərəcədə yaxın adamlardan, yaxud öz qrupundan təcrid olunması, ayrı düşməsi, onunla yaxınlığının itirilməsi nəzərə çatdırılır. Belə bir uzaqlaşma, yaxınlığı itirmə sosial təcrid, tənhalıq halətləri yaradır və bu da fərd tərəfindən, xüsusən də yeniyetmələr tərəfindən dərin psixoloji halət kimi yaşanır, yəni onlarda dərin emosional narahatlıq yaradır, bir sıra hallarda onların ziddiyyətli davranışının təzahürləri üçün mühüm zəmin olur, bəzən kəskin neqativ davranış özünü göstərir. Bir cəhət də nəzərdən qaçırıla bilməz ki, yeniyetməlik yaşı şəxsiyyətin formalaşması, başqa sözlə yeniyetmənin şəxsiyyət kimi təşəkkülü dövrüdür, buna görə də həmin yaş mərhələsində olan yeniyetmələrdə şəxsiyyətlərarası münasibətlərin onların ziddiyyətli davranışını şərtləndirməsi müəyyən spesifik cəhətlərə malikdir. Həmin spesifiklik ilk növbədə yeniyetmələrdə şəxsiyyətlərarası münasibətlərin əhatə dairəsində özünü büruzə verir. Bu ilk növbədə yeniyetmələrin daha sıx əlaqədar olduğu əhatə dairəsi ilə məhdudlaşır. Məlumdur ki, yeniyetmələrin ilk şəxsi münasibət sistemi onların öz ailə üzvləri ilə olan münasibətləri əhatə edir [12, s. 15]. Yəni yeniyetmələrin şəxsiyyətlərarası münasibətlər sisteminin onlarda ziddiyyətli davranışın təzahürlərini şərtləndirən ilkin dairə ailə üzvləri ilə olan şəxsiyyətlərarası münasibətlərin məzmun və xarakteri, başlıca istiqamətləri təşkil edir. Həmin münasibətlər sistemində iki istiqamət ön plana keçir: əvvəla, ailə üzvləri ona necə münasibət bəsləyirlər, burada təzyiq və sərt münasibət üstünlük kəsb edir, yoxsa nəzarətsizlik, əzizləmə, yeniyetmənin neqativ davranışlarına göz yumma və s. İkincisi, yeniyetmələr ailə üzvlərinin müxtəlif məzmunlu, müxtəlif xarakterli münasibətlərini necə qavrayır, necə dərk edir və nəhayət, onları öz davranış və rəftarlarında necə təzahür etdirir. Başqa sözlə, ailə üzvlərinin münasibətlər sisteminə nə dərəcədə adekvat və ya qeyri-adekvat cavab verilir və bu onun ziddiyyətli davranışının təzahürlərinə hansı səviyyədə və necə təsir göstərir. Əhəmiyyətlilik dərəcəsinə görə yeniyetmələrin münasibətlər sisteminin ikinci dairəsini məktəb, oxuduğu sinif, yəni bilavasitə dərs prosesində və dərsdənkənar vaxtlarda təmasda olduğu sinif yoldaşları və onlara dərs deyən müəllimlər qrupu təşkil edir. Burada da irəlidə qeyd edilən iki başlıca cəhət, yəni ona bəslənən münasibət və həmin münasibətin düzgün dərk edilməsi səviyyəsi və ona olan reaksiyaların xarakteri ön plana keçir. Nəzərdən qaçırılmır ki, həmin reaksiyaların məzmun və istiqaməti, eləcə də intensivlik dərəcəsi yeniyetmələrdə müxtəlif qəbilli psixoloji halətlərin yaranmasını və onların şəxsiyyətlərarası münasibətlər sistemini şərtləndirə bilir. Yeniyetmələrin şəxsiyyətlərarası münasibətlər sistemini onların deviant davranışlarının təzahürlərinə təsirinin üçüncü dairəsi yeniyetmələrin bilavasitə təmasda olduğu həmyaşıdlar, bəzən də həmyaşıdları olmayan müxtəlif tərkibli qruplardır. Yəni yeniyetmənin qoşulmuş olduğu qruplarda psixoloji iqlimin, münasibətlər sisteminin xarakteri onlarda həmin qrup daxilində mövcud olan şəxsiyyətlərarası münasibətlərin məzmun və xarakteri, onun xüsusən də neqativ cəhətləri yeniyetmələrdə müxtəlif xarakterli ziddiyyətli davranışların təzahürlərini şərtləndirə bilir. Bu cəhət xüsusən də yeniyetmələrin bəzən hər hansı münasibətlə təsadüfən qoşulduğu, əvvəlcədən kifayət qədər bələd olmadığı, bəzən hər hansı bir zahiri cəhətə görə onu cəlb edən və bəzən də xüsusi niyyətlə cəlb edilən qruplardakı rəftar və davranış, münasibətlər sistemi, qrup üzvləri arasındakı şəxsiyyətlərarası münasibətlər yeniyetmələrdə bəzən müəyyən ziddiyyətli davranışların təzahürlərinə çox ciddi təsir göstərir. Yeniyetmələrin şəxsiyyətlərarası münasibətlər sisteminin bir dairəsini də “sərbəst münasibətlər”, “azad münasibətlər”, “gözlənilməz münasibətlər” və s. təşkil edir. Bu məkan münasibətinə görə məhdudlaşmır, buraya “məhəllədənkənar”, “məktəbdən kənar”, bəzən də yaşadığı kənddən, şəhərdən kənar, hansısa təsadüflə bağlı əlaqə və münasibət yaranan adamlar, xüsusən də həmyaşıdlar arasında, eləcə də “sərbəst küçə uşaqları", yaxud başqa yeniyetmələr arasında

yaranan şəxsiyyətlərarası münasibətlərlə bağlı ziddiyyətli davranışın təzahürləri aid edilə bilər. Bütün bu cəhətlər, yəni yeniyetmələrin şəxsiyyətlərarası münasibətlərini əhatə edən bu bölgü dairələrinin hamısı bu və ya digər dərəcədə tədqiqat işində əhatə edilmişdir. Lakin bunların vaciblik dərəcəsi nəzərə alınmaqla bu və ya digər cəhətin araşdırılmasına bəzən nisbətən çox, bəzilərinə isə nisbətən az diqqət yetirilmişdir. Burada ilk növbədə praktik əhəmiyyətlilik səviyyəsi, yeniyetmələrdə ziddiyyətli davranışın təzahürlərinin ağırlıq dərəcəsi nəzərə alınmışdır. Bütün bu cəhətlərlə yanaşı tədqiqat prosesində bir neçə mühüm müddəa da əsas götürülmüşdür.

Əvvəla, nəzərə alınır ki, yeniyetməlik yaşında şəxsiyyətlərarası münasibətlər və onların yeniyetmələrin ziddiyyətli davranışına təsiri məsələsi yekcins, birmənalı anlayış olmayıb mürəkkəb psixoloji struktura və müxtəlif çalarlı təzahürlərə malikdir.

İkincisi, yeniyetmələrin daxil olduqları qruplarda şəxsiyyətlərarası münasibətlər mürəkkəb sosial-psixoloji proseslər olub bir sıra xarici, xüsusən də daxili amillərin təsirindən asılıdır. Təsiredici amillər sisteminin məzmun və istiqamətindən, intensivlik dərəcəsindən asılı olaraq yeniyetmələrdə ziddiyyətli davranışların təzahürləri də fərqli olur.

Üçüncüsü, yeniyetməlik yaşında şəxsiyyətlərarası münasibətlərin məzmun və xarakterinin yeniyetmələrin psixoloji durumuna təsiri mürəkkəb məzmuna malik olub müxtəlif səciyyəli ziddiyyətli davranışın təzahürlərinə səbəb olur. Dördüncüsü, müasir şəraitdə yeniyetmələrin şəxsiyyətlərarası münasibətlər sistemində neqativ cəhətləri şərtləndirən amillər sisteminin çoxalması onlarda ziddiyyətli davranışların intensivlik səviyyəsinə ciddi təsir göstərir, yəni onun müxtəlif təzahürlərini artırır [11, s. 205]. Müasir deviantologiyanın banisi Emil Durkheim (1858-1917) "İntihar" (1897) əsərində sapmanın səbəblərini araşdıraraq "anomiya" anlayışını təqdim etmişdir. O, anomiyanı (fransızcadan anomie - qanunsuzluq, qanunsuzluq; yunanca ἀ--mənfi prefiks, inkar, νόμος - qanun) dəyərlər sisteminin və sosial normaların çürüməsi, parçalanması və parçalanmasının baş verdiyi cəmiyyət vəziyyəti kimi başa düşürdü. Sosial norma müəyyən bir cəmiyyətdə tarixən müəyyən edilmiş icazə verilən (icazə verilən və ya məcburi) davranışın sərhədini, ölçüsünü, intervalını müəyyən edir. insanların, sosial qrupların, ictimai təşkilatların fəaliyyəti, sosial norma öz təcəssümünü əmrlərdə, qanunlarda, adət-ənənələrdə, adət-ənənələrdə, yəni vərdiş halına gələn, gündəlik həyata, insanların əksəriyyətinin həyat tərzinə möhkəm şəkildə daxil edən, ictimai rəylə dəstəklənən, sosial və şəxsiyyətlərarası münasibətlərin "təbii tənzimləyicisi" rolunu oynayır.

Bir çox tədqiqatçılar deviantlığı sosial norma-gözləntilərə uyğunluq dərəcəsi ilə müəyyən edirlər. Nəticə etibarı ilə deviant davranış müəyyən bir cəmiyyətin sosial gözləntilərinə cavab verməyən davranışdır.

"Deviant davranış" termininin müəllifi J.İ. Gilinsky (1934) sosial normaların mövqeyindən yayınmağı nəzərə alaraq belə nəticəyə gəldi ki, sosial norma "müəyyən bir cəmiyyətdə tarixən müəyyən edilmiş həddi", "məqbul davranış ölçüsüdür".

V.D. Mendeleviç (1956) "Deviant davranış psixologiyası" əsərində vurğulayır ki, kənarlaşma norma ilə patoloji arasında sərhəd, normanın ifrat variantıdır. İnsan davranışındakı sapmaları əvvəlcədən müəyyən edən əsas amillərin ictimai şüurun səviyyəsi, mənəviyyat, cəmiyyətdə sosial tənzimləmə sisteminin inkişafıdır. Aşağıdakı nümunəni izləyə bilərik: 20-ci əsrin birinci yarısında deviant davranış bir çox mənfi təzahürlərlə əlaqələndirilirdi, dini dünyagörüşündə "şər" təcəssümü, hüquq normalarına (S.V.Serqienko) hətta onu "qeyri-normal" hesab etmək meyli də var idi. Buna görə də J.İ. Gilinsky -nin nöqteyi-nəzərini vurğulamaq lazımdır. Gilinsky və V.N. Kudryavtsev, qeyri-cansız təbiətdə dalğalanma (qazda və ya mayedə molekulların vahid paylanmasından müvəqqəti təsadüfi sapma), canlı təbiətdə mutasiya (orqanizmin irsi xüsusiyyətlərinin dəyişməsi) kimi sapmanın universal forması, dəyişkənlik yolu, nəticədə hər hansı bir həyat fəaliyyəti və inkişafıdır.

İnsan ünsiyyətinin ən sadə normalarının belə kütləvi şəkildə pozulması insanların mədəniyyət səviyyəsinin ümumi şəkildə aşağı düşməsinə dəlalət edir. Cəmiyyətin primitivləşməsi sosial patologiyanın müxtəlif formalarına haqq qazandırır, nəinki onlara qarşı mübarizə aparmağı, hətta onları pisləməyi də dayandırır. Zaman keçdikcə həm normaların özünə, həm də deviant davranışa münasibət dəyişməyə başlayır, getdikcə daha çox elm adamı deviant davranışın sosial konstruktiv aspektini nəzərdən keçirməyə başladı. Xüsusilə maraqlı olan J.A. Kleiberg nəzəriyyəsində (1953), o, üç əsas davranış sapma qrupunu ayırır:

1)Müsbət (sosial yaradıcılıq);
2)Mənfi;
3)Sosial cəhətdən neytral.

Şəxsi, situasiya və ekoloji səviyyələrdə ümumi davranış modelinin təsbitinə əsaslanaraq, Y.A. Kleiberg sapmaların statusunu, rolunu, fəaliyyətini və dəyər modellərini müəyyən etmişdir. Alim deviant davranışın məlum növləri ilə yanaşı, vandalizm və onun müxtəlif qraffiti, "qara yumor" və s. təsvir etmişdir. Qraffiti və məhvetmə pafosu ilə dolu "sadist şeirlər" həm mənfi sapmalara, həm də emosional gərginliyin atılmasına kömək edən, sosial cəhətdən neytral olanlara aiddir. Beləliklə, deviant davranışa münasibətin yenidən nəzərdən keçirilməsi kimi bir fenomeni izləyə bilərik. və sosial müsbət (elmi, texniki, bədii, ictimai və siyasi yaradıcılıq) baxımından. Aşağıdakı tendensiya müşahidə edilə bilər: 20-ci əsrin birinci yarısında deviant davranış bir çox mənfi təzahürlərlə əlaqələndirildi, lakin 20-ci əsrin ikinci yarısından etibarən həm normaların özünə, həm də deviant davranışa münasibət dəyişməyə başladı, getdikcə daha çox elm adamı deviant davranışın sosial konstruktiv aspektini öyrənməyə başladı [13, s.3].

**Nəticə**

Təhlil göstərdi ki, yeniyetməlik dövründə müşahidə olunan deviant davranışların başlıca səbəbləri ailədaxili münasibətlərdəki pozuntular, məktəb mühitindəki uyğunsuzluq, həmyaşıd təsiri və emosional-psixoloji gərginliklərdir. Bu dövrdə baş verən intensiv psixoloji dəyişikliklər və şəxsiyyətin formalaşması prosesi sosial mühitin, ailə münasibətlərinin və həmyaşıdlarla qarşılıqlı əlaqələrin təsiri ilə sıx bağlıdır. Psixoloji yanaşmalar həm daxili motivasiyaların, həm də xarici amillərin başa düşülməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Problemin daha effektiv müşahidə və müdaxiləsi üçün ailə, məktəb və psixoloji xidmətlər arasında əməkdaşlıq vacibdir. Erkən müdaxilə və kompleks yanaşma deviant davranışın inkişaf riskini əhəmiyyətli dərəcədə azalda bilər. Müasir dövrün aktual problemlərindən biri kimi bu davranış növünün dərin və sistemli şəkildə öyrənilməsi onun effektiv həllinə imkan yaradır. Belə yeniyetmələrin sağlam və funksional şəxsiyyət kimi cəmiyyətə inteqrasiyası qarşıya qoyulan əsas məqsədlərdən biridir.

## ƏDƏBİYYAT SİYAHISI

1.Əhmədova G.M. Müasir şəraitdə yeniyetmələrin asosial davranışının təzahür xüsusiyyətləri və onların tənziminin psixoloji xüsusiyyətləri [Mətn] : Psixologiya e.n.a.dər.a üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı : 19.00.07./Bakı Dövlət Universiteti, 180 s.

2.Андреев А.М. Девиантное поведение подростков и молодежи: причины, особенности и меры предупреждения // Вестник Российского государственного торговоэкономического университета. 2010. № 4. С. 120-125. 7. Змановская Е. В. Структурно-динамическая концепция девиантного поведения // Вестн. Томского гос. пед. ун-та. 2013. Вып. 5 (133). С. 189–194.

3.Бажин Е.Ф, Голынкина Е.А., Эткинд А.М. Метод исследования уров-ня субъективного контроля // Психологический журнал, 1984, т.5, Nº 3

4.Выготский, Л.С. Психология детского возраста. - М.: Эксмопресс, 2000. – 1008 с

5.Еникеев. М.И. Психологический Энциклопедический Словарь. -М: Проспект, 2009. -560с

6.Грановская Р.М. Элементы практической психологии. СПБ, Свет 1997.

7.Жаровских А. Понятие преступности несовершеннолетних ] // Молодой ученый. — 2014. — №4. — С. 838-840.

8.Малков В.Д. Криминология. – М.: ЮСТИЦИНФОРМ, - 2011, - 544 с.

9.Остапенко Г.С., Остапенко Р.И. Анализ особенностей личности подростков с девиантным поведением // Перспективы науки и образования. 2013. № 1. С. 54-60.

10.Комкова Е. И.. Ярославский педагогический вестник .Социальная активность детей с разными уровнями мышления.– 2011 – № 3 – Том II-248с.

11.Келвин С.Х., Линдсей Г. Теория личности: М.: 1997, 720 с.

12.Илюсизова С.М. Учитель-ученик: проблемы взаимоотношений.Алма-Ата Изд. Мектеб, 1989

13.Monahan, K.C., Steinberg, L ve Cauffman, E. Affilation with antisocial peers, susceptibility to peer influence and antisocial behavior during the transition to adulthood. Developmental Psychology, 2009, 45

**Rashid Vekil JABBAROV**
Doctor of Psychology, Professor
E-mail: rashid.jabbar.v@gmail.com
Orcid:https://orcid.org/0000-0002-0623-27721

**Nilufer Rauf MAMMADOVA**
Western Caspian University
Master's student, Department of Psychology and Social Work,
E-mail: nilufarmammadova0703@mail.ru
nilufer.memmedova.2024@wcu.az

## PECULİARİTİES OF ADOLESCENT DEVİANT BEHAVİOR

**Summary**

Deviant behavior is defined as actions that violate social norms, including both informal social rules and more formal social expectations and laws. Psychological theories of deviant behavior explain it from various perspectives. The psychoanalytic approach, for example, may suggest that all people are subject to unconscious urges that lead to social deviations. Learning theories, on the contrary, suggest that these behaviors are learned by observing others engage in deviant behavior. In the context of substance use, this emphasizes that people begin to use drugs or abuse alcohol as a result of witnessing other people using substances. This article discusses the psychological facts that lead to deviant behavior and how it differs from socially acceptable behavior, as well as the role of family, society, educational life and their interpersonal relationships in the psychosocial development of adolescents. It has been observed that deviant behavior manifests itself more in adolescence, in connection with the crisis. In modern times, with the increasing number of single-parent families, the improper use of social media and the influence of street groups, the increase in various types of deviant behavior in adolescents is noticeable. Approaching this problem from a socio-psychological perspective allows us to study its types, causes, how it is formed in society and, most importantly, solutions.

**Keywords:** adolescent, asocial behavior, personality, attitude, deviant behavior, social norm, anomie.

**Рашид Векиль ДЖАББАРОВ**
Доктор психологических наук, профессор
E-mail: rashid.jabbar.v@gmail.com

Orcid: https://orcid.org/0000-0002-0623-27721

**Нилуфар Рауф МАМЕДОВА**
Западно-Каспийский университет,
Магистрант кафедры психологии и социальной работы
E-mail: nilufarmammadova0703@mail.ru
nilufer.memmedova.2024@wcu.az

## ХАРАКТЕРИСТИКИ ДЕВИАНТНОГО ПОВЕДЕНИЯ ПОДРОСТКОВ

**Резюме**

Девиантное поведение определяется как действия, нарушающие социальные нормы, включая как неформальные социальные правила, так и более формальные общественные ожидания и законы. Психологические теории девиантного поведения объясняют его с разных точек зрения. Например, психоаналитический подход может предполагать, что все люди подвержены бессознательным побуждениям, которые приводят к социальным отклонениям. Теории обучения, напротив, предполагают, что такое поведение усваивается путем наблюдения за другими людьми, проявляющими девиантное поведение. В контексте употребления психоактивных веществ это подчеркивает, что люди начинают употреблять наркотики или злоупотреблять алкоголем, становясь свидетелями того, как другие люди употребляют психоактивные вещества. В статье рассматриваются психологические факты, приводящие к девиантному поведению, и его отличие от социально приемлемого поведения, а также роль семьи, общества, образовательной жизни и межличностных отношений в психосоциальном развитии подростков. Замечено, что девиантное поведение чаще проявляется в подростковом возрасте, в связи с кризисами. В современное время, с ростом числа неполных семей, неправильным использованием социальных сетей и влиянием уличных банд, заметно увеличение различных видов девиантного поведения у подростков. Рассмотрение этой проблемы с социально-психологической точки зрения позволяет изучить ее типы, причины, механизмы формирования в обществе и, что самое главное, пути решения.

**Ключевые слова:** подросток, антисоциальное поведение, личность, отношение, девиантное поведение, социальная норма, аномия.

**Daxil olub:** 14.11.2025